# 525-ci qəzet

18 iyul 2012-ci il, çərşənbə №126 (3682). Qiyməti 20 qəpik

www.525.az


# MTN narkotik maddə və brilyant qaçaqmalçılığı ilə məşğul olan dəstələri zərərsizləşdirib

## APARILAN ƏMƏLİYYATLAR ZAMANI KÜLLİ MİQDARDA NARKOTİK MADDƏ VƏ 110,93 KARAT BRİLYANT MÜSADİRƏ OLUNUB



Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində külli miqdarda narkotik vasitələri və brilyant daşları qaçaqmalçılıq yolu ilə Azərbaycana gətirmiş şəxslər cinayət başında yaxalanıblar. MTN İctimai Əlaqələr Mərkəzindən APA-ya verilən məlumata görə, Azərbaycan Respublikasının vətəndaşı — Tağıyev Ramil Nağı oğlu, İran İslam Respublikasının vətəndaşları — Avızak Hassan Youssef oğlu, Sakanlou Hamzeh Bakır oğlu və hazırda şəxsiyyəti istintaqla araşdırılan Mahmud adlı iranlı cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında satış məqsədilə İran istiqamətindən külli miqdarda narkotik vasitələr olan tiryək və heroini gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirərək Azərbaycana gətiriblər.

Müəyyən edilib ki, əvvəlcədən əldə edilmiş razılığa əsasən Ramil Tağıyevin qohumu Mahmud adlı iranlı içərisində tiryək və heroin olan bağlamaları Hamzeh Sakanlounun idarə etdiyi "Pejo" markalı avtomaşının yanacaq çənində gizlədib. Hamzeh Sakanlou və Hassan Avızak həmin narkotik vasitələri avtomobildə "Biləsuvar" gömrük məntəqəsindən gizli keçirərək Bakı şəhərinə gətiriblər. Ramil Tağıyev də Hamzeh Sakanlou və Hassan Avızakı qarşılayıb yaşadığı Binə qəsəbəsi, Südçülük Sovxozu adlanan ərazidə yerləşən evinin yaxınlığındakı işlədiyi dəmirçi sexinə aparıb. Qrupun üzvləri içərisində 3 kiloqram 987,5 qram tiryək və 988,4 qram heroin olan bağlamaları avtomaşınının yanacaq çənindən çıxararkən yaxalanıblar.

Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi digər əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz daşınması ilə məşğul olan Azərbaycan vətəndaşları — Məmmədova Alidə Yadulla qızı, Rzayev Camal Cəbrayıl oğlu və Rzayev Ramil Aid oğlu saxlanılıb. Alidə Məmmədova, Camal Rzayev, Ramil Rzayev, habelə şəxsiyyətləri istintaqla araşdırılan Rəsul və Əsgər adlı İran İslam Respublikasının vətəndaşları cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında satış məqsədilə İran istiqamətindən külli miqdarda heroini qaçaq yolla Azərbaycana gətiriblər.

Məlum olub ki, 2012-ci ilin iyulun əvvəlində Alidə Məmmədova İranın Astara şəhərinə gedib və orada satış məqsədilə qaçaq yolla külli miqdarda narkotik vasitənin Azərbaycana keçirilməsi barədə tanışı Rəsulla sövdələşib. Rəsul külli miqdarda heroini qaçaq yolla Azərbaycanın Cəlilabad rayonunun ərazisinə keçirilməsini və orada gizlədilməsini təşkil edib. Bundan sonra Əsgər adlı digər iranlı Camal Rzayevə narkotik vasitənin gizlədildiyi yer barədə məlumat verib. Camal Rzayev qrupun digər üzvü Ramil Rzayevlə birlikdə sonuncunun idarə etdiyi "Mersedes" markalı avtomaşınla Cəlilabad rayonuna gedərək narkotik vasitəni həmin gizli yerdən götürüb və Astara rayonunun Rüdəkənar kəndinə apararaq Alidə Məmmədovaya çatdırıb. Camal Rzayev əvvəlcədən əldə edilmiş razılığa əsasən Alidə Məmmədovadan aldığı 700 manat puldan 200 manatı Ramil Rzayevə verib. Təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində qrupun üzvləri yaxalanıb, onlardan 572,3 qram heroin aşkar edilərək götürülüb.

Milli Təhlükəsizlik Nazirliyi tərəfindən həyata keçirilmiş daha bir əməliyyat tədbiri nəticəsində dövlətin qanunla qorunan hüquq və mənafelərinə ziyan vurulmasının qarşısı alınıb, qaçaqmalçılıq yolu ilə gizli şəkildə 110,93 karat brilyant daşları Azərbaycana gətirmiş şəxslər cinayət başında yaxalanıblar.

Azərbaycan Respublikasının vətəndaşları Rzayev Məmməd Nəriman oğlu və İbrahimov Ramiz Şəmil oğlu cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında külli miqdarda brilyant daşları satış məqsədilə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində alınmasını və qanunsuz olaraq Azərbaycana gətirilməsini təşkil ediblər.

Müəyyən olunub ki, Məmməd Rzayev və Ramiz İbrahimov 2012-ci il iyulun 8-də təyyarə ilə Heydər Əliyev Beynəlxalq Hava Limanından Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərinə gediblər. Dubay şəhərində Məmməd Rzayev və Ramiz İbrahimov ümumi çəkisi 110,93 karat olan brilyant daşlar alıblar. Bundan sonra Məmməd Rzayevlə Ramiz İbrahimov öz aralarında ümumi razılığa gələrək qaçaq yolla Azərbaycan ərazisinə keçirmək üçün həmin brilyant daşları sellofan paketə qablaşdırıb Ramiz İbrahimovun şalvarının kəmər hissəsinin astarında gizlədiblər. Məmməd Rzayev və Ramiz İbrahimov 2012-ci il iyulun 11-də təyyarə ilə Bakı şəhərinə qayıdıb və əldə etdikləri həmin brilyant daşları hava limanının gömrük nəzarətindən gizli keçiriblər.

Məmməd Rzayevlə Ramiz İbrahimov Azərbaycan Respublikasının gömrük sərhədini keçdikdən sonra hava limanının avtomobil dayanacağında Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları tərəfindən yaxalanıvlar. Hal şahidlərinin iştirakı ilə keçirilmiş baxış zamanı Ramiz İbrahimovun şalvarının kəmər hissəsinin astarında gizlədilmiş qeyd olunan brilyant daşlar aşkar edilərək götürülüb.

Bütün faktlarla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq), 234.4.1-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma) maddələri ilə cinayət işləri başlanıb. Adları çəkilən şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

İstintaq-əməliyyat tədbirləri davam edir.

# III ixtisas qrupu üzrə minimal keçid balı aşağı salınıb



Azərbaycanda ali məktəblərin III ixtisas qrupu üzrə minimal keçid balı aşağı salınıb. Bu barədə APA-ya TQDK-nın mətbuat xidmətinin rəhbəri Elnur Nağızadə bildirib. Onun sözlərinə görə, III ixtisas qrupu üzrə minimal keçid balı 300-dən 250-yə endirilib. III ixtisas qrupu üzrə ixtisas seçimində aşağıdakı müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər: "Bu il III qrup üzrə ixtisas seçimində ümumi balı 250-dən, hər hansı bir imtahan fənni istisna olmaqla qalan dörd imtahan fənninin hər biri üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

Xüsusi qabiliyyət tələb edən ixtisasların bəzi istiqamətləri üzrə müsabiqə şərtlərində dəyişiklik edilib. Buna dair cədvəl TQDK-nın internet saytında yerləşdiriləcək. Müsabiqədə iştirak etmək üçün qoyulan tələbləri ödəyən abituriyentlər iyulun 7-dən avqustun 16-dək "Abituriyentin elektron ərizəsi"ndə ixtisasları seçib təsdiq etməlidirlər".

Bu arada Azərbaycanda ali məktəblərin III ixtisas qrupu üzrə qəbul imtahanlarının nəticələri açıqlanıb. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) verilən xəbərə görə, imtahanın nəticələri TQDK-nın rəsmi internet saytında yerləşdirilib. Abituriyentlər imtahanın nəticələri barədə məlumatı həmçinin mobil telefonla 7727 nömrəsinə iş nömrələrini göndərməklə öyrənə bilərlər.

Qeyd edək ki, ali məktəblərin III ixtisas qrupu üzrə qəbul imtahanları iyulun 14-də Bakı, Gəncə, Sumqayıt, Şəki, Lənkəran və Naxçıvanda keçirilib.

Hər bir abituriyent öz imtahan nəticələrinə dair məlumat vərəqini internet vasitəsilə əldə edə bilər.

III ixtisas qrupu üzrə imtahanda iştirak etmək üçün sənəd vermiş 30831 abituriyentdən 984 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 43 nəfəri köçürməyə cəhd etdiklərinə görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. Test imtahanının nəticəsinə əsasən 9038 abituriyent (xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə iştirakçıları istisna olmaqla) müsabiqədə iştirak etmək hüququ qazanıb.

III ixtisas qrupu üzrə test imtahanının nəticəsi əsasında imtahan ballarının paylanması "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc olunacaq.

İxtisas seçimi avqustun 7-dən avqustun 16-dək internet vasitəsilə aparılacaq. Qəbul aparılan ixtisasların siyahısı isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunacaq.

# Müəllimlərin işə qəbulu üzrə müsabiqəyə 3270 vakant yerə 15500 ərizə təsdiqlənib

## 700-DƏN ÇOX ƏRİZƏ İXTİSAS UYĞUNLUĞU OLMADIĞINA GÖRƏ LƏĞV EDİLİB

Azərbaycanda 2012-2013-cü tədris ili üçün müəllimlərin işə qəbulu üzrə elektron ərizələrin araşdırılması başa çatıb. Ərizələrin təhlili nəticəsində 3270 vakant yer üçün təqdim edilən 16 195 elektron ərizənin 700-dən çoxu ixtisas uyğunluğu olmadığına görə ləğv edilib. Bu barədə APA-ya Təhsil Nazirliyinin Strateji təhlil, planlaşdırma və kadrların idarəolunması şöbəsinin müdiri Fərzəli Qədirov bildirib. Onun sözlərinə görə, 15500 ərizə təsdiq edilib: "Onlardan 15 mini Azərbaycan, 500-dək ərizə isə rus bölməsi üzrə vakant yerlərə verilib".

F. Qədirov bildirib ki, daha çox elektron ərizələr ibtidai sinif, ingilis dili, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və tarix fənləri üzrə verilib: "İbtidai siniflər üzrə 143 vakant yerə 3700-dən çox elektron ərizə verilib. Həmin yerlərdən 39-u Bakı şəhərindədir, 3700 elektron ərizənin də böyük əksəriyyəti Bakı şəhəri üzrə olan həmin yerlərə verilib. Ona görə də Bakı şəhərində çox ciddi müsabiqə vəziyyəti yaranıb".

Bu il regionlar üzrə də ərizələrin sayının artdığını deyən şöbə müdiri bildirib ki, regionlar üzrə daha çox elektron ərizə ingilis dili fənni üzrə verilib: "Bu fənn üzrə 247 vakant yerə 2700-dən çox elektron ərizə təqdim edilib. Azərbaycan dili və ədəbiyyat fənni üzrə 337 vakant yerə 2000-dən, riyaziyyat fənni üzrə 271 yerə 1400-dən çox ərizə verilib. Tarix fənni üzrə isə 260 vakant yerə 1000-dən çox ərizə verilib".

F. Qədirovun sözlərinə görə, iyulun 19-da bütün elektron ərizə vermiş müəllimlərin elektron səhifələrinə imtahanın keçiriləcəyi yer və vaxtı ilə bağlı məlumatlar göndəriləcək. Müəllimlərin işə qəbulu üzrə müsabiqənin 2-ci mərhələsi-elektron imtahanların aparılmasına isə iyulun 23-də başlayacaq və avqustun sonunadək davam edəcək: "Həmin imtahanların son dərəcə şəffaf və aşkarlıq şəraitində keçirilməsi üçün hazırlıq işləri başa çatdırılıb. Nazirlik müəllimlərin diqqətinə çatdırır ki, işə qəbul üçün yeganə meyar onların müsabiqədə göstərdikləri nəticədir. Proses elektron vasitələr tətbiq olunmaqla həyata keçirilən şəffaf bir mexanizmdir".

# Sabahdan hava sərinləşəcək

İyulun 19-dan başlayaraq ölkə ərazisində hava şəraiti yenidən sərinləşəcək, havanın temperaturu yenidən bir neçə dərəcə enəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev "Trend"ə deyib ki, iyulun 18, 19, 20-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz olacaq. İyulun 20-də yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacaq. Yaxın 3 gün ərzində hava küləkli keçəcək. Şimal-qərb küləyi arabir güclənəcək.

İyulun 20-də gündüz külək mülayimləşəcək. İyulun 18-də havanın temperaturu gündüz saatlarında 30-35, 19-da 27-34, 20-də 25-30 dərəcə isti olacaq.

Azərbaycanın bölgələrində iyulun 18-də hava əsasən yağmursuz keçəcək. İyulun 19-da axşam, 20-də gecə və axşam rayonlarda şimşək çaxacaq, yağış yağacaq. Bəzi dağlıq və dağətəyi rayonlarda yağışın leysan xarakterli olacağı gözlənilir.

İyulun 18-də Aran rayonlarında havanın temperaturu 32-37, dağlarda 22-27, iyulun 19-20-də Aran rayonlarında havanın temperaturu 27-32, dağlarda 19-24 dərəcə isti olacaq.

İlkin proqnozlara görə, iyulun 23-dən ölkə ərazisində yenidən havanın temperaturu yüksələcək.

# Bir sıra ölkə parlamentlərində Qarabağla bağlı qətnamələrin qəbulu gözlənilir

"Qarabağ münaqişəsi ilə bağlı bir sıra ölkələrin, ö cümlədən Baltikyanı respublikaların parlamentlərində qətnamələrin qəbulu gözlənilir".Bunu iyulun 17-də parlamentin 2012-ci il yaz və növbədənkənar sessiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında vitse-spiker Bahar Muradova dilə gətirib.

Onun qeyd etdiyinə görə, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı bu günə kimi bir sıra ölkələrin — İtaliya, Kolumbiya, Meksika, Pakistan və Almaniyanın parlamentlərində qətnamələr qəbul edilib və bu qətnamələrdə Azərbaycanın haqlı mövqeyi dəstəklənib: "Biz bu yöndə digər ölkələrin parlamentləri ilə də işlərimizi davam etdiririk. Və ola bilsin ki, yaxın gələcəkdə Baltikyanı ölkələrin parlamentlərində də Qarabağ məsələsi ilə bağlı müvafiq qətnamələr qəbul edilsin. Biz sadəcə, onlardan xəbər gözləyirik. Eyni zamanda, bu məsələ ilə bağlı konkret ölkələrin adlarını da açıqlamaq istəmirəm, çünki bu ölkələrin adlarını açıqlayarkən erməni lobbisi və diasporu əks fəaliyyətə başlayır. Ancaq bununla belə qeyd etmək istəyirəm ki, Qarabağ məsələsi ilə bağlı bir sıra ölkələrin parlamentlərində qətnamələrin qəbulu istisna deyil".

**Kamil HƏMZƏOĞLU**

# *Ziyad Səmədzadə:* "Ümumdünya Ticarət Təşkilatı ilə danışıqlarda ana xətt milli maraqların gözlənilməsidir"



"Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qəbul olunması yönündə danışıqlar prosesi davam etdirilir. Bu danışıqların da ana xəttini Azərbaycanın milli maraqlarının gözlənilməsi təşkil edir". Bunu iyulun 17-də parlamentin 2012-ci il yaz və növbədənkənar sessiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə dilə gətirib. Komitə sədrinin qeyd etdiyinə görə, bu təşkilata qəbul olunmaqla bağlı tələskənliyə yol vermək olmaz. Çünki vaxtilə bir sıra ölkələr bu təşkilata üzv qəbul olundular və onların qısa bir zamanda milli iqtisadiyyatının vəziyyəti xeyli dərəcədə ağırlaşdı: "Vaxtilə bizə Qırğızıstanı misal göstərirdilər ki, bu ölkə necə tez bir zamanda ÜTT-yə qəbul olundu. Qırğızıstanın həmin təşkilata 12-13 il bundan öncə qəbul olunmasına baxmayaraq, baxın görün, onun bu gün iqtisadi durumu nə yerdədir, bu quruma hələlik üzv olmayan Azərbaycanın iqtisadi vəziyyəti nə yerdədir. Ona görə də hesab edirəm ki, bu məsələdə tələsmək olmaz. Düzdür, mən də Azərbaycanın bu təşkilata qəbul olunmasının tərəfdarıyam, ancaq bir şərtlə ki, bu quruma üzvlükdən sonra Azərbaycanın milli maraqları nəzərə alınsın".

**Kamil HƏMZƏOĞLU**

# *Bahar Muradova:* "Beynəlxalq təşkilatların dəyərlərini Azərbaycana gətirməkdə özümüz maraqlıyıq"



"Biz ATƏT, Avropa Şurası (AŞ) və digər beynəlxalq təşkilatlarla birgə işləməkdə, əlaqələr yaratmaqda və onların dəyərlərini, standartlarını Azərbaycana gətirməkdə maraqlıyıq".Bunu iyulun 17-də parlamentdə Milli Məclisin (MM) 2012-ci ilin yaz və növbədənkənar sessiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında vitse-spiker Bahar Muradova dilə gətirib.Vitse-spikerin qeyd etdiyinə görə, bir var beynəlxalq təşkilatların tövsiyələri, bir də var onlar qarşısında götürülən öhdəliklər: "Tövsiyələr heç də öhdəlik və tələb xarakteri daşımır. Biz onların istənilən məsələlərlə, o cümlədən, seçki məsələsi ilə bağlı tövsiyələrinə baxa və öz fikirlərimizi bildirə bilərik. Necə ki, indiyədək bunu etmişik. Ancaq bu heç də o demək deyil ki, onların tövsiyələri tələb və ya öhdəlik kimi qəbul edilə bilər.O cümlədən, qarşıdan gələn seçkilərlə bağlı, daha doğrusu, seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə əlaqədar istənilən beynəlxalq təşkilatla, eləcə də, ATƏT və onun Demokratik Təsisatlar və İnsan Haqları Bürosu ilə əməkdaşlığa hazırıq. Tərəfimizdən bu məsələdə heç bir problem yoxdur və olmayacaq".

**Kamil HƏMZƏOĞLU**

# *Səfa Mirzəyev:* "Müvafiq qaydalara uyğun tikilməyən tikililərlə bağlı qanun layihəsi hazırlana bilər"

"Müvafiq qaydalara uyğun tikilməyən tikililərlə bağlı qanun layihəsi hazırlana bilər".Bunu iyulun 17-də parlamentin 2012-ci il yaz və növbədənkənar sessiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında parlament Aparatının rəhbəri Səfa Mirzəyev dilə gətirib. S.Mirzəyevin qeyd etdiyinə görə, ancaq bu məsələnin tez bir zamanda reallaşması heç də asan deyil: "Biz Şəhərsalma və Tikinti Məcəlləsi müzakirə olunarkən bu məsələnin orada öz əksini tapmasını nəzərdə tuturduq, ancaq sonradan gördük ki, el arasında deyildiyi kimi, qeyri-qanuni və ya qanunsuz tikililərin sənədləşdirilməsi ilə bağlı məsələ bu Məcəllənin predmeti deyil. Ona görə, biz bu yöndə ayrı qanun layihəsinin hazırlanmasını nəzərdə tuturuq.Onu da qeyd edim ki, bu məsələ heç də göründüyü kimi asan məsələ deyil. Çünki qanunsuz tikililərlə bağlı problemlər tamam fərqli məsələlərdir. Amma bu məsələ cəmiyyəti ciddi düşündürdüyü üçün biz də parlament olaraq bu problemin həllinə köməklik göstərmək istəyirik. Yəni, bu yöndə xüsusi qanun layihəsinin hazırlanması və gələcəkdə müzakirəyə çıxarılması istisna olunmur".

**Kamil HƏMZƏOĞLU**

# "Onların mövqeyi birmənalı şəkildə dövlətçiliyə ziddir"

***AYDIN MİRZƏZADƏ:*** "BELƏ BİR SİYASƏTLƏ HEÇ VAXT CƏMİYYƏTİN RƏĞBƏTİNİ QAZANMAQ OLMAZ"

Bu günlərdə Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi.



Müşavirədə dövlət başçısının toxunduğu məsələlərdən biri də "Eurovision-2012" ilə bağlı idi. İ.Əliyevin sözlərinə görə, "Eurovision" mahnı müsabiqəsinin Azərbaycanda keçirilməsi bizə imkan verdi ki, ölkəmizi dünyaya olduğu kimi təqdim edək. "Eurovision-2012" təşkilati nöqteyi-nəzərdən ən gözəl müsabiqə olduğunu deyən Prezident Azərbaycana gələn minlərlə xarici qonağın təşkilati məsələləri yüksək qiymətləndirdiyini və onların bütövlükdə şəhərimizə heyran olduğunu bildirdi. Onun fikrincə, Bakıda keçirilmiş "Eurovision" müsabiqəsi başqa şəhərlər üçün nümunə ola bilər.

Prezident bu vaxta qədər sadəcə mahnı yarışması olan "Eurovision"ın Azərbaycana gəldikdə, onu siyasiləşdirmək istəyən qüvvələr tapıldığına və Azərbaycana qarşı böyük və çirkin kampaniya başladığını da söylədi. O, "Eurovision-2012" zamanı antiazərbaycan qüvvələrin birləşməsi prosesinin sürətlə getdiyini deyərək, Azərbaycan dövləti üçün bir nömrəli düşmənin dünya erməni lobbisi olduğunu qeyd etdi: "Onlar gündəlik fəaliyyətdə Azərbaycanı ləkələmək, qaralamaq, şaiyə, böhtan yaymaq üçün çalışırlar. Bununla yanaşı Avropada islamofobiya xəstəliyinə düçar olmuş bəzi dairələr bu kampaniyaya qoşuldu. Belə fikirlər səsləndi ki, müsəlman ölkəsində Avropa müsabiqəsi keçirilə bilməz. Üçüncü qüvvələr sadəcə olaraq böhranlı illərdə Azərbaycanın sürətli inkişafını həzm edə bilməyən və uğurlarımıza qısqanan, paxıllıq edən dairələrdir.

Xarici dairələrə qoşulmuş yerli, antimilli qüvvələr, özünü müxalifət adlandıran, əslində, uzun illər antiazərbaycan mövqeyində dayanan və Azərbaycana qarşı kampaniya aparan elementlər, ünsürlər vardır.

Bütün bunların simbiozu birləşərək Azərbaycana qarşı çox çirkin, yalan və böhtan üzərində kampaniya apardılar. Həm xarici, həm daxili mətbuatda qəsdən müəyyən təxribatların baş verməsini onlar təşkil etdilər. Daxildəki elementlər üçün siyasi həyatda bir prinsip var ki, Azərbaycan üçün nə qədər pisdirsə, onlar üçün bir o qədər yaxşıdır.

Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yanlış məlumat yaymaq, erməni lobbisi ilə birləşmək — bütün bunlar bizim gözümüzün qabağında baş vermiş hadisələr idi. Azərbaycan xalqı bir daha açıq-aydın gördü ki, kim kimdir. Bu dərəcədə antimilli duyğularla yaşayan insanlar burada özləri üçün necə yer tapa bilirlər?! Onlar üçün hər gün dərddir, hər gün faciədir. Bir yenilik görəndə üzülürlər, bir inkişaf görəndə yasa batırlar. Bunlar doğrudan da, çox ağır psixoloji durumda olan insanlardır. İnkişaf, gözəllik, abadlıq bunlar üçün daimi stressdir və onların məntiqsiz hərəkətləri illərcə yığılmış bu stressin təzahürüdür. Göründə ki, mitinqlərinə gələn insanların sayı getdikcə azalır, yeni taktikaya əl atdılar. Şəhərin mərkəzində qanunsuz piket, ya mitinq keçirməklə xarici mətbuatın diqqətini cəlb etməyə çalışdılar. Bu, sırf təxribat xarakteri daşıyan bir addım idi. "Eurovision" artıq qurtardı. Haradadır o piketlər, haradadır o mitinqlər?! Öz xalqına, millətinə, dövlətinə bu qədər mənfi münasibət bəsləyən insanlara bir ad vermək olar — milli satqınlar, xəyanətkarlar və antimilli qüvvələr. Bütün cəhdlərə və çirkin kampaniyaya baxmayaraq, biz — Azərbaycan dövləti, Azərbaycan xalqı qalib gəldi".

"Eurovision" mahnı müsabiqəsinin Azərbaycanın qazandığı bütün nailiyyətlərin son qiyməti olduğunu bildirən millət vəkili Aydın Mirzəzadə bu yarışmanın yüksək səviyyədə keçirilməsini mədəniyyətə olan qayğı kimi qiymətləndirib. A.Mirzəzadə bunun Azərbaycanın beynəlxalq arenada tanınması üçün mühüm addım olduğunu diqqətə çatdırıb: "Cənab prezidentin söylədiyi kimi, Azərbaycan bu sınaqdan uğurla çıxdı. Qısa bir zamanda ölkə infrastrukturu bu yarışmaya hazırlandı. Gözəl və sonradan başqa böyük tədbirlər keçirilməsi üçün istifadə ediləcək Bakı Kristall Zalı tikilib, hazırlandı. Tədbirin yüksək səviyyədə keçirilməsi üçün qonaqlara bütün şərait yaradıldı. Həqiqətən də bu "Eurovision" yarışması hazırlıq səviyyəsinə görə indiyədək keçirilən müsabiqələr arasında ən yüksəkdə olanıdır. Bu, Azərbaycanı, Azərbaycan mədəniyyətini, tanıtdı, Azərbaycan təşkilatçılığının yüksək səviyyədə olduğunu dünyaya göstərdi".

Müşavirədə müsabiqə ərəfəsində ölkə daxilində və xaricdə çirkin cəhdlərin olması ilə bağlı dövlət başçısının fikirlərinin açıq, dəqiq və obyektiv olduğunu deyən millət vəkili bunları söyləyib: "Həqiqətən də müsabiqə ərəfəsində çoxlu çirkin cəhdlər edildi. Hesab edirəm ki, bu məsələ ilə bağlı dövlət başçısı cənab İlham Əliyevin söylədiyi fikirlər son dərəcə obyektiv idi. "Eurovision" hər bir ölkənin arzuladığı və keçirməyə cəhd etdiyi bir yarışmadır. Hansı bir ölkə qalib olarsa, həmin dövlətin yüksək səviyyədə ev sahibliyi etməsi üçün cəmiyyətinin bütün qüvvələri var qüvvələri ilə səy göstərirlər. Azərbaycan cəmiyyətinin böyük qüvvəsi bu hazırlıqlarda iştirak etdi. Lakin Azərbaycan müxalifəti nəinki bu proseslərdə iştirak etdi, əksinə ölkəmizə mənfi imic formalaşdırmaq üçün maksimum səviyyədə qüvvə sərf etdi. Onlar yalançı mitinqlər keçirərək, piketə cəhdlər edərək, xarici media orqanları üçün yalan informasiyalar yaymaqdan belə çəkinmədilər. Çox maraqlıdır ki, yarışma ərəfəsində mitinq və piketdən danışan müxalifət yarışmadan sonra tamamilə fəaliyyətini dayandırdı. Göründüyü kimi, məqsəd ondan ibarət deyildi. Bununla yanaşı bir sıra xarici mətbuatda Azərbaycanla bağlı yazılar getdi. Bütün bunlar məqsədli şəkildə hazırlanırdı. Dünya ictimaiyyəti tərəfindən Azərbaycana mənfi imic formalaşdırmaq üçün yazılırdı. Bunların içərisində xaricdə Azərbaycanın əleyhinə işləyən erməni diaspor təşkilatlarının olmasını birmənalı şəkildə söyləmək olar. Buna diqqət yetirən zaman müxalifət təşkilatlarının bu fəaliyyəti təəssüf doğurur. Onların mövqeyi birmənalı şəkildə dövlətçiliyə ziddir. Onların bu yanaşması birbaşa Azərbayan maraqlarının əleyhinə yönəlmiş mövqedir. Əlbəttə ki, belə bir siyasətlə heç vaxt cəmiyyətin rəğbətini qazanmaq olmaz".

Azərbaycan dövlətinin apardığı siyasətin son dərəcə açıq və dəqiq olduğunu deyən A.Mirzəzadə bütün bu siyasətin mərkəzində Azərbaycan xalqının dayandığını bildirib. Onun sözlərinə görə, bu müxalifət partiyaları bunu heç cür qəbul etmək istəmir.

**Aqil LƏTİFOV**

# Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclası olub

Dünən Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclası keçirilib.

İclasda Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Odlar Yurdu Universiteti, Azərbaycan Kooperasiya Universiteti, 2 nömrəli Bakı Baza Tibb Kolleci və Gəncə Musiqi Kollecinin akkreditasiyasının nəticələri müzakirə olunub.

Tədbiri giriş sözü ilə təhsil naziri Misir Mərdanov açaraq ali təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsinin əhəmiyyətindən danışıb və müvafiq məsələlərlə bağlı fikirlərini bildirib.

Prezident yanında Dövlət İdarəçilik Akademiyası üzrə Akkreditasiya Komissiyasının sədri, Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri İbrahim Quliyev bu təhsil müəssisəsində aparılmış akkreditasiyanın nəticələri barədə şura üzvlərinə məlumat verib. İ.Quliyev bildirib ki, komissiya akademiyada müvafiq ixtisaslar üzrə tədrisin təşkilinin və həyata keçirilməsinin vəziyyətini, onun dövlət təhsil standartlarının tələblərinə uyğunluğunu araşdırıb, mütəxəssis hazırlığını öyrənmək məqsədi ilə sonuncu kurs tələbələrinin bilik səviyyəsinin yoxlanmasını həyata keçirib və akademiyanın fəaliyyətini yüksək qiymətləndirib. Komissiyanın sədri təhsil müəssisəsinin fəaliyyətindən, tədris şəraitindən və maddi-texniki bazasından, məzunların işlə təmin edilməsindən də danışıb, komissiyanın bir sıra təklif və tövsiyələrini qeyd edib.

Sonra Təhsil Nazirliyinin Akkreditasiya şöbəsinin müdiri Həbib Zərbəliyev Odlar Yurdu Universiteti üzrə aparılan akkreditasiyanın nəticələri barədə çıxış edib. H.Zərbəliyev universitetdə mütəxəssis hazırlığının keyfiyyəti haqqında danışıb, elmlər doktoru və professorların sayını və digər göstəriciləri, eləcə də komissiyanın gəldiyi qənaəti diqqətə çatdırıb.

Azərbaycan Kooperasiya Universiteti üzrə Akkreditasiya Komissiyasının sədri, Azərbaycan Texniki Universitetinin Sənaye iqtisadiyyatı və menecment kafedrasının müdiri Ramiz İsgəndərov bu təhsil müəssisəsinin fəaliyyəti haqqında geniş məlumat verib. R.İsgəndərov universitetin professor-müəllim heyətinin xaricdə ixtisasartırma kurslarında olması, məzunların ixtisasları üzrə işlə təmin olunmaları və digər statistik məlumatları iştirakçıların nəzərinə çatdırıb.

Sonra 2 nömrəli Bakı Baza Tibb Kolleci üzrə Akkreditasiya Komissiyasının sədri, Azərbaycan Tibb Universitetinin professoru Akif Qurbanov akkreditasiyaya təqdim olunmuş ixtisaslar üzrə təhsil proqramlarının məzmunundan, müəssisədə tədrisin təşkili vəziyyətindən söhbət açıb.

Gəncə Musiqi Kolleci üzrə Akkreditasiya Komissiyanın sədri, Bakı Slavyan Universitetinin kafedra müdiri Nuridə Novruzova kollecin tədris şəraiti, son beş ildə müəllim heyətinin hər 10 nəfərinə düşən qriflə nəşr olunmuş dərs vəsaitlərinin sayı, eyni zamanda pedaqoji heyətin fəaliyyəti barədə məlumat verib.

Daha sonra qeyd olunan təhsil müəssisələri üzrə akkreditasiyanın nəticələrinə aid şura üzvlərini maraqlandıran suallar cavablandırılıb, rəy və təkliflər səsləndirilib.

Akkreditasiya Surasının iclasında mövcud meyarlar üzrə tələblərə uyğunluğu nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və Odlar Yurdu Universitetinin fəaliyyəti "yaxşı", Azərbaycan Kooperasiya Universitetinin və digər iki kollecin fəaliyyəti isə "kafi" qiymətləndirilib. İclasda, həmçinin qeyd olunan təhsil ocaqlarının müvafiq ixtisaslarının akkreditə olunması barədə qərar qəbul edilib.

**S.QARAYEVA**

# DSMF-də I yarımilin yekunlarına həsr olunan kollegiya iclası keçirilib

Dövlət Sosial Müdafiə Fondunda (DSMF) 2012-ci ilin I yarımilinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan geniş kollegiya iclası keçirilib. Fondun ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumata görə, DSMF sədri Səlim Müslümov bildirib ki, ilin birinci yarısında ölkə vətəndaşlarının yaşayış səviyyəsi yüksəlib, ölkəmiz öz iqtisadi inkişaf tempinə görə öncül mövqeyini qoruyub saxlayıb, pensiyaçıların sosial müdafiəsi sahəsində mühüm tədbirlər həyata keçirilib: "Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bəyan etdiyi kimi, 2012-ci il bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün çox uğurlu il kimi tarixdə qalacaq. Altı ayda makroiqtisadi vəziyyət sabit olub, inflyasiya cəmi 2,2 faiz təşkil edib. Əhalinin pul gəlirləri isə 14,2 faiz artıb, inflyasiya ilə əhalinin pul gəlirləri arasında 12 faiz fərq yaranıb".

S.Müslümov qeyd edib ki, ötən 6 ay ərzində sığorta-pensiya sisteminin davamlı inkişafına nail olunması, həmçinin əmək pensiyaçılarının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri uğurla davam etdirilib. Yanvar-iyun aylarında DSMF-nin gəlirləri 1272,45 mln. manat təşkil edib ki, bu da 2011-ci ilin müvafiq dövrünə nisbətən 343 mln. manat və ya 36,9 faiz çoxdur. Hesabat dövründə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2011-ci ilin müvafiq dövrünə nisbətən 15,2 faiz və ya 85,1 mln. manat artaraq 646,7 mln. manat təşkil edib: "Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 59,5 faizi və ya 385,1 mln. manatı qeyri-büdcə sektorunun payına düşür və əvvəlki ilə nisbətən 15,4 faiz və ya 51,3 mln. manat artıb, proqnoz isə 106,7 faiz icra olunub. Bu dövrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və torpaq pay mülkiyyətçilərinin sosial sığortaya cəlb edilməsi gücləndirilib. Nəticədə, fiziki şəxslər üzrə daxilolmalar 9,5 faiz, torpaq pay mülkiyyətçilərindən daxilolmalar isə 4,4 faiz artıb".

Fondun sədri diqqətə çatdırıb ki, ilin I yarısında büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 261,7 mln. manat olub. Həmin təşkilatların ödədiyi məcburi dövlət sosial sığorta haqları əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,8 faiz və ya 33,8 mln. manat artıb, proqnoz 92,6 faiz icra olunub: "Ümumilikdə, Fond üzrə məcburi dövlət sosial sığorta haqlarının daxil olması proqnozu 100,8 faiz icra olunub və bu, pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsinə imkan verib".

İlin ilk 6 ayında DSMF-nin xərclərinin 1198,7 mln. manat olduğunu deyən S.Müslümov bildirib ki, hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün Fond tərəfindən 1177,6 mln. manat vəsait yönəldilib: "Bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 290,8 mln. manat və ya 32,8 faiz çoxdur. Pensiya xərcləri 2011-ci ilin müvafiq dövrünə nisbətən 33,6 faiz və ya 289,5 mln. manat artaraq 1150,5 mln. manat təşkil edib. 2012-ci ilin yanvarın 1-dən bütün növ əmək pensiyalarının sığorta hissəsinə 7,9 faizlik artım tətbiq olunub. Bu artım əvvəlki illərdən həyata keçirilən artımlardan fərqli olaraq böyük kontingenti əhatə edib. Belə ki, indeksləşmədən kənarda qalan 482 min nəfərin pensiyası orta hesabla 44 manat və ya 52 faiz artıb, onların da pensiyasının sığorta hissəsi yaradılıb və hazırda pensiyaçıların 92,2 faizinin pensiyalarının sığorta hissəsi mövcuddur. Bu isə 2011-ci il və ondan sonrakı illərin inflyasiya göstəricilərinə uyğun olaraq hər il aparılacaq pensiyaların sığorta hissəsinin artırılması proseslərinin həmin pensiyaçılara şamil olunması deməkdir".

S.Müslümov qeyd edib ki, bu ilin ilk yarısında əhaliyə 27 mln. manat məbləğində müavinət ödənilib. DSMF-nin digər xərcləri 21,1 mln. manat təşkil edib ki, bu da 2011-ci ilin müvafiq dövrünün göstəricisindən 0,2 mln. manat və ya 0,8 faiz azdır.

DSMF sədri vurğulayıb ki, ötən dövr ərzində pensiya və müavinət təyinatının avtomatlaşdırılması istiqamətində tədbirlər daha da intensivləşdirilib, əhaliyə göstərilən elektron xidmətlərin sayı əhəmiyyətli dərəcədə genişləndirilib: "Hazırda Fond tərəfindən əhaliyə 20-yə yaxın interaktiv və informativ elektron xidmətlər təqdim olunur. Bir sözlə Fond tərəfindən pensiyaçılar və sığortaolunanlar üçün nəzərdə tutulan əsas xidmətlər elektronlaşdırılıb. Hazırda pensiya təyinatı üzrə əməliyyatların vahid mərkəzdən aparılmasını həyata keçirəcək proqram təminatının hazırlanması və tətbiqi ilə bağlı tədbirlər görülür".

S.Müslümov vurğulayıb ki, ilin birinci yarısında mühüm tədbirlərdən biri də pensiyaların plastik kartlar vasitəsilə ödənilməsi sisteminin təkmilləşdirilməsi sahəsində görülən işlər olub. Xidmətin keyfiyyətinin yaxşılaşdırılması və bu sahədə şəffaflığın daha da artırılması məqsədilə DSMF ölkənin bütün ödəniş təşkilatları arasında açıq tender keçirib və tender proseduru Maliyyə, İqtisadi İnkişaf nazirlikləri, Satınalmalar üzrə Dövlət Agentliyinin nümayəndələrinin iştirakı ilə 69 lot üzrə baş tutub".

Sonra Fondun aparatının ayrı-ayrı şöbələrinin müdirləri hesabat dövründə həyata keçirilən tədbirlər, mövcud problemlər və qarşıda duran vəzifələrlə bağlı çıxışlar edib.

Kollegiya iclasında Fondun yerli orqanlarının 2012-ci ilin ilk yarısındakı fəaliyyəti ətraflı təhlil edilib və fəaliyyətlərində nöqsanlara yol verən vəzifəli şəxslər barəsində intizam tənbehi tədbirlərinin görülməsi üçün müvafiq qərarlar qəbul edilib.

**BƏXTİYAR**

# İranda həbs olunmuş Azərbaycan şairləri ilə bağlı online aksiya keçirilir

"İrəli" İctimai Birliyi 2 aydan çox İran İslam Respublikasında əsassız ittiham olunaraq saxlanılan gənc azərbaycanlı şairlər Fərid Hüseyn və Şəhriyar Hacızadənin azad olunmasına dəstək məqsədilə online imza kampaniyasına start verib. Birlikdən verilən məlumata görə, 2 gün öncə start verilən aksiyaya artıq 1000 nəfər insan qoşulub. Kampaniyanın əsas məqsədi qanunsuz olaraq həbsdə saxlanılan şairlərin qeyd-şərtsiz azad olunması tələbi ilə yanaşı, insan hüquqları ilə bağlı fəaliyyət göstərən yerli və beynəlxalq təşkilatları bu istiqamətdə daha fəal olmalarına çağırışdır.

"İrəli" İctimai Birliyinin sədri Rauf Mərdiyev bildirib ki, insan hüquqları ilə bağlı çalışan beynəlxalq və yerli təşkilatlar, hüquq müdafiəçiləri, gənclər təşkilatları həmvətənlərimizin azad olunması istiqamətində səylərini artırmalıdır: "Təəssüflə qeyd etməliyəm ki, "Eurovision" ərəfəsində canfəşanlıq edən bir çox qurum və şəxslər bu məsələ ilə bağlı susurlar. Hüquqları kobud şəkildə pozulmuş Azərbaycan vətəndaşlarına yardım etmək üçün bütün qüvvələrin səfərbər edilməli olduğu bir anda bu susqunluq həmin qurum və şəxslər üçün insan haqlarının deyil, ayrı-ayrı dairələrin sifarişlərinin vacib olduğunun göstəricisidir. Onlayn imza kampaniyası yalnız ölkə daxilində fəaliyyət göstərən deyil, həmçinin beynəlxalq təşkilatları bu məsələdə fəal olmağa çağırır. Son günlər bir sıra müsbət irəliləyişlərin şahidi olsaq da, hər iki soydaşımız azad edilib geri qaytarılmayana qədər bu istiqamətdə fəaliyyətimizi dayandırmayacağıq".

**S.QARAYEVA**

# "Bu, internetin inkişafına ciddi təkan verəcək"

Azərbaycan İnternet Forumu İdarə Heyətinin toplantısı keçirilib. Bu barədə "525"ə Forumdan məlumat verilib. Məlumata görə, toplantıda cari ilin noyabr ayında Bakı şəhərində keçirilməsi nəzərdə tutulan beynəlxalq İnternet İdarəçiliyi Forumunun (IGF) 7-ci toplantısı ilə bağlı məsələ müzakirə olunub. Toplantıda adı çəkilən Forumun Azərbaycanda keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Forumun Azərbaycan internetinin inkişafı üçün də faydalı olacağı və inkişafa təkan verəcəyi diqqətə çatdırılıb.

Bununla belə IGF-nin internetə aid müxtəlif problemlərin müzakirəsi ilə bağlı həm beynəlxalq, həm də milli platforma olmasını nəzərə alaraq AİF Forum ərəfəsində hökumət, eləcə də cəmiyyət üçün Azərbaycan internetinin spesifik problemlərinin də diqqətə çatdırılmasının əhəmiyyətli olacağını düşünür.

AİF ümid edir ki, bu cür sanballı beynəlxalq tədbirin keçirildiyi ərəfədə hökumətin və internet ictimaiyyətinin səylərinin Azərbaycan İnternetinin aktual problemlərinin həlli istiqamətdə gücləndirilməsi ölkədə internetin inkişafına ciddi təkan verəcək.

AİF-in toplantısında Azərbaycan internetinin inkişafını ləngidən əsas problemlər və inkişafa təkan verəcək məsələlər ətrafında fikir mübadiləsi də aparılıb və ölkənin internet ictimaiyyətinin fəallığının artırılmasının faydalı olacağı bildirilib. Xüsusən milli domen adının (.az domeninin) qeydiyyatı, regionlarda internetə əlçatımlıq, informasiya təhlükəsizliyi, o cümlədən uşaqların təhlükəsizliyinin qorunması, elektron hökumət quruculuğu və informasiya açıqlığı sahəsində problemlərin aktual olması diqqətə çatdırılıb. Bununla bağlı hökumətə və cəmiyyətə müraciətin hazırlanması, cari ilin oktyabr ayında geniş ictimai müzakirənin keçirilməsi vacib hesab olunub.

**AQİL**

# "5/36"-dan növbəti "Cek Pot"!

BAKI SAKİNİ 39 840 MANAT UDDU!

İndi lotereya oyunları ilə maraqlananları 30-40 min manat məbləğində uduşlarla təəccübləndirmək çətindir. Təkcə son 2-3 ay ərzində "5/36" lotereyasından mart ayında 66 900 manat, may ayının sonunda isə 60 200 manat məbləğində uduş sahibləri haqqında ətraflı məlumat vermişdik. Keçən aydan başlayaraq, bu tipli lotereyalarda iri uduş sahiblərinin sayı daha da çoxalacaq. Bildiyiniz kimi, "5/36" və bu tipii yeni oyun olan "6/40"ın tirajları artıq həftədə üç dəfə deyil, bazar günündən başqa hər axşam keçirilir və bu oyunlarda "Cek Pot"lar daha sürətlə artaraq, tez bir zamanda kifayət qədər sanballı məbləğə çevrilirlər və budur "5/36" lotereyasının növbəti "Cek Pot"-u uduldu. Bakı şəhər sakini Qurbanov İlyas Şahin oğlu, 434-cü tirajda 39 840 manat məbləğində uduşa sahib oldu. 29 yaşlı İlyas gənc ailə başçısıdır. Adətən, iri məbləğdə uduş sahiblərinə verilən ənənəvi sualı ona da verdik: kifayət qədər iri məbləğdə pulu udan anda, bu pulu sərf etməklə bağlı ilk ağlınıza gələn nə oldu? İlyas fikirləşmədən, "ipoteka krediti ilə mənzil almışam və ilk olaraq ipoteka kreditinin böyük bir hissəsini bağlayacağam" cavabını verdi. İlyasdan bir "sirri" də açmağı xahiş etdik. "5/36" və "6/40" tipli oyun həvəskarları arasında keçirilən sorğular göstərir ki, onların 17,3%-i, bir qayda olaraq, əvvəlki tirajlarda daha tez-tez çıxan rəqəmləri, 27,8%-i ailə üzvlərinin, yaxın dost və tanışlarının doğum və digər əlamətdar günləri ilə üst-üstə düşən, 15,7%-i özlərinin qurduqları sistemə uyğun təyin etdikləri və 10,8%-i ağlına ilk gələn rəqəmləri qeyd edirlər. Qalanlar hazır biletləri satış məntəqələrindən alırlar. Bəs İlyas ona 39 840 manat pulu gətirən 5 qalib rəqəmi hansı üsulla müəyyən edib? O, ürəkdən gülərək danışdı ki, bir neçə yaxın adamla birlikdə oturubmuşlar və onun xahişi ilə məclisdəkilərin hərəsi ağlına gələn bir neçə rəqəm söyləyib. İlyas isə məhz xalasının həyat yoldaşının dediyi 5 rəqəmi qeyd edib və bu da nəticə: Nə az, nə çox- 39 840 manat!

Son günlər lotereya həvəskarlarına sevinc yaşadan təkcə "5/36" lotereyası deyil. Budur, həyata yenicə vəsiqə alan "6/40" oyununda, az bir vaxt ərzində, artıq ikinci "Cek Pot" uduldu və növbəti yazılarımızda xoşbəxt uduş sahibini oxuculara təqdim edəcəyik. "Uğur" lotereyası isə 48-ci tirajda, daha bir oyun iştirakçısını KİA "RiO" avtomobilinə sahib etdi və cümə günü, axşam AzTV tamaşaçıları canlı efirdə bu avtomobilin açarlarının Lənkəran sakini, 54 yaşlı, iki nəvənin babası Əskərov Fikrət Fəyyaz oğluna təqdimatını seyr edə biləcəklər. Elə həmin tirajda, Şəki sakini Lətifov Hikmət Məhəmməd oğlu 2500 manat uddu və bu məbləğ artıq qalibə təqdim edilib. 17 yaşlı yeniyetmə üçün yaxşı məbləğdir, deyilmi? Yazıda bu uduşa ayrıca diqqət ayrılmasının səbəbi odur ki, adətən, iştirakçılar "Ailə Sevinci", "Binqo" və "Uğur" lotereyalarının mətbəədə çap olunmuş hazır biletlərini almağa üstünlük verdikləri halda,




Hikmət terminalda çap olunmuş bilet alıb və gördüyünüz kimi 2500 manat uddu. Gənc Hikmətə və dəyərli oxucularımıza böyük uduşlar, həyatın bütün sahələrində uğurlar arzulayırıq. Oyun iştirakçılarını çoxsaylı avtomobillər, əhəmiyyətli pul uduşları gözləyir. Qısa bir vaxtda, "6/40"-da "Cek Pot"a 11 380 manat əlavə olunub, "5/36"-da "Cek-Pot" 13 970 manata yüksəlib. "Uğur"dan 79 000 manat, "Binqo"dan 24 000, 55 000, 90 000, 125 000 və 75 000 manat, Ailə Sevinci"ndən isə 125 000 manat məbləğində uduşlar da öz yerində. Gördüyünüz kimi arzuların çin olması üçün imkanlar yetərincədir.

# Azercell-dən Ramazan bayramı hədiyyəsi

İNDİ AZERCELL ABONENTLƏRİ ÖLKƏDAXİLİ 1 DƏQİQƏ=5 QƏPİK TARİFİ İLƏ DANIŞACAQLAR

Azercell Telekom MMC Ramazan ayı münasibətilə abonetləri üçün yeni kampaniyaya start verir. 17 iyul — 21 avqust 2012-ci il tarixlərini əhatə edəcək Ramazan kampaniyası çərçivəsində Azercell abonetləri daha sərfəli tariflə ünsiyyət quracaqlar.

Belə ki, bu müddət ərzində 5 AZN və ya daha yüksək nominalda kart yükləyən bütün Azercell Fakturasız Xətt abonentləri ölkədaxili 1 dəqiqə=5 qəpik tarifi ilə danışacaqlar.

Qeyd edək ki, kampaniya çərçivəsində verilən tarif yalnız 21.08.2012 tarixinədək etibarlıdır. Tarif yalnız ölkədaxili zənglər üçün istifadə edilə bilər. 1 dəqiqə=5 qəpik tarifi üzrə hesablama intrevalı 10 saniyədir. GəncSim abonentləri bu kampaniyada iştirak edir və kampaniya çərçivəsində bu abonentlər 3-cü dəqiqədən sonra pulsuz danışır. Bölgə tarifində olan abonentlər də bu kampaniyadan yararlana bilər. Kampaniyadan istifadəni dayandırmaq üçün 1010 qısa nömrəsinə boş SMS göndərmək lazımdır.




Azercell sizə bayram hədiyyəsi olaraq təqdim etdiyi bu kampaniyadan yararlanmaq və sevdiklərinizlə bolluca danışmaq imkanını bəxş edir.

# "Bəziləri hər şeyi siyasiləşdirmək istəyir"

***ALLAHŞÜKÜR PAŞAZADƏ:*** "ÖLKƏMİZİ KƏNARDAN QARIŞDIRMAQ İSTƏYƏN ÇOXLU QÜVVƏLƏR VAR"

Dünən Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Qazılar Şurasının iclası keçirilib. Müqəddəs Ramazan ayından danışan QMİ-nin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə bu ay ərzində xeyir əməllərin həyata keçirilməsinin zəruri olduğunu bildirib. Ramazan ayında oruc tutmağın öz şərtlərinin olduğunu diqqətə çatdıran şeyx bu şərtlərə riayət edilməsinin vacib olduğunu deyib: "Bu ay daha çox Quran oxumaq, mərhəmət etmək, heç kəsin qəlbini sındırmamaq lazımdır".



Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İsgəndərovun da iştirak etdiyini nəzərə çatdıran şeyx bunları söyləyib: "Dövlət Komitəsinin rəhbərliyinə kimin təyin edilməsi dövlət işidir. Ancaq Elşad İsgəndərovu tanıyıram. Öz millətini sevən bir insandır. Dövlət başçısı ona səfir statusu verdi, İslam Konfransı Təşkilatında gənclərlə bağlı böyük işlər gördü. Hamımız onu təbrik edirik".

Şeyx ölkəmizi kənardan qarışdırmaq istəyən çoxlu qüvvələrin olduğunu deyərək QMİ ilə dini komitənin birgə iş aparacağını söyləyib: "Şimalda da, cənubda da belə qüvvələr var. Bəziləri istəyirlər ki, baş verən hadisələri siyasiləşdirsinlər. Biz birlikdə işləyəcəyik. Bu məsələdə də Prezident İlham Əliyev bizə dayaqdır. Təki din, tolerantlıq məsələsində birgə işlər görək. Azərbaycançılığa, dinə qarşı hərəkətlərə Qafqaz Müsəlmanları İdarəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə çalışacağıq".

Şiə və sünni məzhəblərinin bir-birinə düşmən olmadığını vurğulayan A.Paşazadə bunların hər birinin hüquqlarının olduğunu və bu hüquqlarının yerinə yetirilməsinə imkan yaratmağın zəruriliyini diqqətə çatdırıb. Onun sözlərinə görə, şiələri məcbur etmək lazım deyil ki, sən belə etməlisən: "Eyni zamanda şiə məzhəbindən olanlar sünni məzhəbinə təsir göstərməməlidir ki, bunu belə et. Çünki hamının Allahı birdir".

Fətva məsələsinə toxunan QMİ sədri belə deyib: "Bəziləri deyir ki, Qafqaz Müsəlmanları İdarəsi fətva verə bilməz. Bizim qurum 1840-cı ildən fətva verir. Fətva olan bir şeylə bağlı qərar vermək deməkdir, yeni bir şey deyil. Biz 1990-cı ildə şəhidlərlə bağlı xalqın qarşısında fətva verdik. Fətva olan bir şeylə bağlı qərar vermək deməkdir, yeni bir şey deyil. Bu da siyasi məsələdir. Bəziləri hər şeyi siyasiləşdirmək istəyirlər. Hər bir dövlətin maraqları var, məsələni siyasiləşdirirlər və bunu dövlətimizə qarşı istifadə etməyə çalışırlar. Nə üçün fətva verə bilmərik? Öz dövlətimiz, sərhədimiz, dini duyğularımız var və dini duyğularımızdan istifadə edirik. Niyə dini duyğularımızdan istifadə edə bilmərik?".

Məscidlərdə oxunması üçün QMİ tərəfindən xüsusi xütbələrin hazırlandığını dilə gətirən A.Paşazadənin sözlərinə görə, məscidlərdə məhz bu xütbələrə uyğun moizələr oxunmalıdır. Din xadimlərimiz də hər ay bununla bağlı uyğun hesabatlar verəcəklər".

Şeyx QMİ-nin Qazılar Şurasının Ramazan ayının başlanması ilə bağlı fətva verdiyini də bildirib. "Bu gün (dünən — A.L) Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası orucluq ibadətinin — Ramazan ayının başlanması ilə bağlı fətva verib. Ramazan ayının ilk günü miladi təqvimi ilə iyulun 21-ə təsadüf edir. İyulun 20-i isə niyyət gecəsidir. Ayın görünməsindən asılı olaraq Ramazan — fitrə bayramı miladi təqvimi ilə avqustun 19-u və ya 20-ə düşür. Qafqaz Müsəlmanları İdarəsi mübarək Ramazan ayında hamını səbrli olmağa və Allah yolunda xeyirxah işlər görməyə dəvət edir".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Elşad İsgəndərlov cəmiyyətdə din, milli mədəniyyət sahəsində maarifləndirmə işlərinin aparılmasının vacib olduğunu deyib. Din xadimlərinin ixtilaf doğuran məsələlərdən yayınmasının zəruri olduğunu bildirən komitə sədri bunları söyləyib: "Biz dini məsələlərə müdaxilə edə bilmərik, amma axund və qazıların fəaliyyətindən böyük gözləntilər var. Cəmiyyətdə din, milli mədəniyyət sahəsində maarifləndirmə işləri aparılmalıdır. Din xadimləri ixtilaf doğuran məsələlərdən yayınmalıdır. Niyyət pis olanda mübahisə açılır. Din sahəsində də milli birliyimiz, vəhdətimiz qorunmalıdır. Dövlət millətçi, vətənpərvər vətəndaşın yetişdirilməsində maraqlıdır. Din də o cümlədən. Biz həyatını istənilən an torpağımız uğrunda canını fəda verməyə hazır gənc hazırlamaq istəyiriksə, bu məsələləri nəzərə almalıyıq".

Dövlət Komitəsinin sədri Ramazan ayında ilk növbədə şəhid və qazi ailələrinin ehtiyacları ilə maraqlanılmasını zəruri sayıb: "Biz bu ay əsas məqamı nəzərdən qaçırmamalıyıq. Söhbət nəfslə mübarizədən gedir. Biz peyğəmbərimizin həyatından bilirik ki, hətta din düşmən olan insanlara da yumşaq, tolerant yanaşılmalıdır. Bu yanaşma radikal gənclərə tövsiyə edilməlidir. Mən daha yaxşı müsəlmanam, sənin namazın səhv, mənim namazım düzdür yanaşması da yanlışdır. Məsələlər peyğəmbərimizin qoyduğu yolla, üslubla çatdırılmalıdır. Dövlət də əxlaqlı, mənəvi, mərd, vətənpərvər vətəndaşın yetişdirilməsində maraqlıdır və din də bunu tələb edir. Ona görə də Qafqaz Müsəlmanları İdarəsi ilə aramızda əlaqələr olmalıdır. Bəzən yerlərdən Dövlət Komitəsinin nümayəndələri bizə bildirilir ki, bu cür ünsiyyət qurulmur. Əlaqə saxlanılmalıdır. Bu gün Azərbaycanda elə siyasi partiya, dövlət qurumu tapmaq olmaz ki, həftədə bir dəfə, cümə günü on minlərlə insana xitab etsin. Bu xitabda Azərbaycanın maraqları, milli dəyərləri əsas olmalıdır. Ona görə də mən şadam ki, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən xüsusi xütbə hazırlanacaq. Bu, həm də insanlardan gələn bir tələbdir. Bir ölkənin vətəndaşı ölkənin bir məscidindən digər məscidinə gedəndə fərqli fikirlər eşitməməlidir".

**Aqil LƏTİFOV**

# *Qənirə Paşayeva:* "Qarabağ problemi bütün dünya türklərinin problemidir"

Türk Ocaqlarının 100-cü ildönümü ilə bağlı İspartada təşkil edilən tədbirdə iştirak edən millət vəkili Qənirə Paşayeva Türk Ocaqlarının fəaliyyətinə verdiyi dəstəyə görə mükafata layiq görülüb. Mükafata görə təşəkkürünü bildirən millət vəkili çıxışında bildirib ki, bu gün Əli Bəy Hüseyinzadənin, Əhməd Bəy Ağaoğlunun və "Türk Ocaqları"nın qurulmasında böyük xidmətləri olmuş digər böyük türk aydınlarının ruhunun şad olduğu gündür: "Məhz onlar "Türk Ocaqları"nın qurucuları olub, silahdaşları ilə bərabər bu qurumu qardaş ölkənin ən nüfuzlu təsisatlarından biri halına gətiriblər. Burada iştirak edən hər kəs çox bəxtiyardır ki, "Türk Ocaqları"nın 100 illik şərəfli yubileyinin iştirakçısıdır. Türk Ocaqlarının 100-cü ildönümü tədbirləri Bakıda da yüksək səviyyədə keçirilib".



Q.Paşayeva Türkiyə ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərin bütövlükdə Türk Dünyası üçün önəm daşıdığını vurğulayaraq, iki qardaş ölkənin tərəqqisinin digər türksoylu respublikalar və əslində bütün regionun, türk dünyasının birliyi, bərabərliyi üçün faydalı olduğunu qeyd edib. Dağlıq Qarabağ münaqişəsinin tarixi və nəticələri, Ermənistanın təcavüzkar siyasəti barədə real faktlara əsaslanaraq ətraflı məlumat verən millət vəkili problemin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın göstərdiyi səylərdən və Ermənistanın destruktiv mövqeyindən danışıb. Qarabağ həqiqətlərinin daha geniş şəkildə yayılmasında ortaq mövqeyin nümayiş etdirilməsinin əhəmiyyətini vurğulayan Q.Paşayeva Dağlıq Qarabağ münaqişəsinin bütün türklərin problemi olduğunu bildirib:

"Harada doğulmasından və harada yaşamasından asılı olmayaraq hər bir Türk insanı Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində səylərini artırmalıdır". Bu işdə böyüyən gəncliyin üzərinə böyük vəzifə düşdüyünü vurğulayan millət vəkili gəncliyi İsmayıl Bəy Qaspirallının "Dildə, fikirdə, işdə birlik" və Azərbaycanın ümummilli lideri Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" — ruhunda böyütmək olduğuna diqqəti cəlb edərək deyib: "Harada doğulmasından və yaşamasından asılı olmayaraq millətimizin böyüyən gəncliyinə tariximizi çox yaxşı öyrətməliyik ki, onlar tariximizə sahib çıxa bilsinlər". Millət vəkili Azərbaycanın qondarma erməni soyqırımı iddialarına qarşı mübarizədə daim qardaş Türkiyənin yanında olduğunu bildirib və Azərbaycanın bu istiqamətdə gördüyü işlər barədə məlumat verib.

Millət vəkili çıxışını "İnşallah növbəti tədbirlərimizi birlikdə işğaldan azad edəcəyimiz Qarabağımızda keçirərik. İnşallah, birlikdə işğaldan azad edəcəyimiz Xankəndində, Şuşada, Xocalıda və digər o cənnət bölgələrimizdə görüşərik" sözləri ilə bitirib.

**Kamil HƏMZƏOĞLU**

# *Səməd Seyidov:* "Ştrasserin məruzəsi başdan-ayağa səhv və böhtandan ibarətdir"

"Avropa Şurasının (AŞ) Azərbaycan üzrə həmməruzəçiləri sözügedən qurumun Parlament Assambleyasının Monitorinq Komitəsi tərəfindən təyin olunublar.Onlar Azərbaycan üzrə həmməruzəçi kimi öz fəaliyyətlərini davam etdirirlər və biz də bir üzv dövlət kimi onlarla əməkdaşlıqda maraqlıyıq".Bu fikirləri iyulun 17-də parlamentdə 2012-i il yaz və növbədənkənar sessiyaların yekunlarına həsr olunmuş mətbuat konfransında Milli Məclisin (MM) Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov dilə gətirib.



Onun bildirdiyinə görə, həmməruzəçilər bir neçə dəfə Azərbaycanda səfərdə də olublar. Və onlar hazırladıqları birgə məruzəni AŞ PA-nın yay sessiyasının müzakirəsinə təqdim ediblər:- "Yay sessiyası zamanı həmməruzəçilərin hazırladığı sənədlə bağlı müzakirələr aparıldı. Çox güman ki, bu ilin oktyabr ayında AŞ PA-nın Monitorinq Komitəsində yenidən bu sənəd müzakirəyə çıxarılacaq. Bununla belə, adıçəkilən sənədin geniş müzakirəsi AŞ PA-nın ya gələn ilin yanvar, ya da aprel ayında keçiriləcək sessiyasının müzakirəsinə çıxarılacaq. Demək istəyirəm ki, həmməruzəçilərin fəaliyyəti ilə bağlı heç bir problem yoxdur. Kimlərsə onlardan narazı qala və ya tənqid edə bilərlər, amma onlar öz işlərini yetinə yetirirlər".S.Seyidov həmçinin "siyasi məhbus" məsələsi üzrə məruzəçi Kristof Ştrafferin hazırladığı məruzəyə toxunaraq bildirib ki, yay sessiyası zamanı bu sənəd çox az səs çoxluğu ilə qəbul edilib:"Biz onun hazırladığı həm bu sənədi, həm də siyasi məhbus meyarlarını müəyyənləşdirən sənədi ciddi təhlil etdik. Xüsusilə də, onun Azərbaycanda "siyasi məhbus" məsələsi üzrə hazırladığı məruzə başdan-ayağa səhv, qeyri-obyektiv, ümumiyyətlə, reallıqları əks etdirməyən məruzədir. Bu məruzə Azərbaycanı istəməyən qüvvələrin, xüsusilə də erməni lobbisinin təsiri altında hazırlanıb. Çox sevindirici haldır ki, Azərbaycanın insan hüquqları üzrə qeyri-hökumət təşkilatları da Ştrasserin hazırladığı bu məruzəyə öz kəskin etirazlarını bildiriblər. Düzünü desək, biz sentyabr və ya oktyabr ayında AŞ PA-nın Monitorinq Komitəsinə və ya İnsan Hüquqları Komitəsinə bununla bağlı etirazımızı bildirməyə hazırlaşırdıq. Ancaq qeyd etdiyim kimi çox əlamətdar haldır ki, hüquq müdafiəsi üzrə qeyri-hökumət təşkilatları bizi qabaqlayaraq AŞ PA rəhbərliyinə öz etirazlarını bildiriblər".

**Kamil HƏMZƏOĞLU**

## Siyasi partiyaların maliyyələşdirilməsi 2013-cü ilə qaldı

"2012-ci ilin büdcəsində vəsait nəzərdə tutulmadığı üçün siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı "Siyasi partiyalar haqqında" qanuna edilmiş dəyişikliklərin icrası gələn ilə qalıb". Bunu iyulun 17-də parlamentin 2012-ci il yaz və növbədənkənar sessiyalarının yekunlarına həsr olunmuş mətbuat konfransında Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev bildirib. S. Mirzəyevin sözlərinə görə, qanunun icrasının yubanması bu amillə bağlıdır. "Növbəti ilin büdcəsinə baxılarkən bu məsələ nəzərə alınacaq. Hesab edirəm ki, 2013-cü ildə siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsinə başlanacaq"-deyə,o, sözlərinə əlavə edib.

**KAMİL**

# *Qüdrət Həsənquliyev:* "Elçibəyin xəstəliyi barədə məndə heç bir məlumat olmayıb"

"Türkiyəyə yola salınana qədər Əbülfəz Elçibəyin xəstəliyi barədə məndə heç bir məlumat olmayıb". APA-nın məlumatına görə, bu fikirləri BAXCP sədri Qüdrət Həsənquliyev partiyanın mətbuat xidmətinə açıqlamasında deyib. Onun Azərbaycan xalq hərəkatının lideri, eks-prezident Əbülfəz Elçibəyin zəhərlənməsinə dair məlumatı olduğu barədə mətbuatda gedən iddiaları dəyərləndirən BAXCP sədri bildirib ki, o vaxta qədər Əbülfəz Elçibəy bağ evində qalırdı və eks-prezidentlə heç bir görüşü olmayıb: "Yalnız Elçibəy Türkiyəyə yola salınanda onun xəstə olduğunu bilmişəm. Çox təəssüf ki, Türkiyədə xəstəxanada olanda da onunla hər hansı görüşüm və xəstəliyi ilə bağlı söhbətim olmayıb".



Qüdrət Həsənquliyev qeyd edib ki, Elçibəyin səhhəti barədə yalnız onunla görüşən şəxslər tərəfindən partiya üzvlərinə və ictimaiyyətə mütəmadi məlumat verilirdi: "Nə dünyasını dəyişənə qədər Əbülfəz bəylə görüşən adamlarla onun zəhərlənməsi ilə bağlı söhbətim olub, nə də həmin ərəfədə partiya rəhbərliyində təmsil olunan şəxslərdən onun zəhərlənməsi barədə bir məlumat eşitmişəm. Ona görə də Əbülfəz bəyin zəhərlənməsi ilə bağlı guya mənim məlumatlı olmağım barədə deyilənlər həqiqəti əks etdirmir. Əgər məndə belə bir məlumat olsaydı, bu barədə çoxdan ictimaiyyəti məlumatlandırardım və müvafiq orqanlara müraciət edərdim".

# *Emin Həsənli:* "İctimaiyyət nümayəndələrinin cəbhə bölgələrinə səfərləri xüsusi əhəmiyyət daşıyır"

İyulun 11-də Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyi Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birlikdə Beyləqan-Füzuli istiqamətində ön xətdə əsgərlərlə görüş keçirib.



Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri Emin Həsənli Lent.az-a açıqlamasında deyib ki, 3 hərbi hissə daxil olmaqla, ön xətdəki hərbi hissələrdə görüşlər təşkil edilib.

Emin Həsənli bildirib ki, əsgərlərimizin əhval-ruhiyyəsi yüksək səviyyədədir: "Maddi-texniki bazanın, əsgərlərin şəraitinin daha da yaxşılaşdığını gördük. Ən əsası odur ki, Azərbaycan əsgərində böyük əhval-ruhiyyə var və bu əhval-ruhiyyə torpaqlarımızın işğaldan azad edilməsini təmin edəcək. Azərbaycan əsgərinin döyüş ruhu yüksəkdir, təlimlər yüksək səviyyədə keçirilir. Biz orada olarkən hərbi hissələrdə təlimlər keçirilirdi və biz də təlimləri müşahidə etdik. Təlimlərin necə yüksək səviyyədə keçirilməsinin şahidi olduq".

Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri belə səfərlərin çox böyük əhəmiyyəti olduğunu söyləyib. Onun sözlərinə görə, əsgərlər "Eurovision-2010" Mahnı Müsabiqəsinin iştirakçısı olmuş və 5-ci yeri tutmuş Səfurə Əlizadə ilə görüşdülər, müğənnimiz səngərə qədər gedib. Səfurə Əlizadə "Sarı gəlin" mahnısını əsgərlərimizlə birgə ifa edib. Muğam ustası, səhnəmizin "Məcnun"u İlkin Əhmədov da əsgərlərimiz qarşısında çıxış edib. O cümlədən Avropa və dünya çempionu olan idmançılarımız, Sambo Federasiyasının baş katibi Yaqub Abdullayev də əsgərlərin görüşünə gəlib: "Bu il Azərbaycanda idman ilidir. London Yay Olimpiadası qabağı idmançıların cəbhə bölgəsinə səfəri həm əsgərlərimizdə, həm də idmançılarımızda yüksək əhval-ruhiyyə yaradır. Azərbaycan mədəniyyət və idman sahələrində böyük qələbələrə imza atıb. Keçən il Azərbaycan "Eurovision"da qalib gəldi, bu il mahnı müsabiqəsini Azərbaycanda keçirdik. Hər il yarışlarda qalib gəlirik, olimpiadalarda uğur qazanırıq. İnşallah, ən böyük qələbəmiz Qarabağda olacaq. Bir daha orada qeyd etdik ki, Azərbaycanın sərhədləri bura deyil, bura təmas xəttidir, inşallah, sərhədlərimizi bərpa edəcəyik. Buna qadir olan güclü ordumuz var. Ən əsası, bu gün Azərbaycanın vətənpərvər gəncliyi var. Bu gənclik orduda xidmət edir. Bu gənclik torpaqlarımızın azad edilməsi üçün hər an döyüşə hazırdır".

Emin Həsənli vurğulayıb ki, belə səfərlərin Azərbaycanda hərbi jurnalistikanın yetişməsində də rolu var. Cəbhə bölgələrində telekanalların hərbi müxbirləri var, onlar bu tədbirlərdə, təlimlərdə iştirak edir. Bu jurnalistlərə ayrıca seminarlar da keçirilir, ekstremal situasiyalara hazırlanırlar. Bu görüşə jurnalistləri də apardıqlarını bildirən Silahlı Qüvvələrə İctimai Nəzarət Birliyinin sədri xatırladıb ki, Birinci Qarabağ Savaşında beynəlxalq ictimaiyyəti informasiya ilə təmin etmək sahəsində xeyli çətinliklərlə üzləşmişik. Bir çox halda naşılıqlara yol verilib. Çünki dövlətçilik ənənələrimiz olmayıb: "İndi bizim o dövrdəki ordumuzla müqayisədə xeyli güclü, vahid komandanlığa əsaslanan ordumuz, nizami hərbi hissələrimiz var. Eyni zamanda çox güclü hərbi jurnalistlərimiz var və Qarabağda savaş başlayarkən xalqımızı, beynəlxalq ictimaiyyəti informasiya ilə təmin edəcəklər. Zabitlərimiz də mətbuatla işləmək qaydasını çox gözəl bilirlər. Ordu ilə xalq arasında həmrəylik yüksək səviyyədədir. Bizim görüşdə QHT nümayəndələri də vardı. Bu görüşə bir neçə gənclər təşkilatının, o cümlədən "İrəli", "Gənclərin Töhfəsi" təşkilatlarının üzvlərini ora aparmışdıq. Bu cür səfərlər il ərzində ardıcıl olaraq həyata keçirilir. Millət vəkilləri, QHT nümayəndələri, qəzetlərin baş redaktorları, yazıçılar, şairlər, ictimaiyyətin digər nümayəndələrinin ön cəbhəyə səfərləri təşkil olunur. Bütün bunlar imkan verəcək ki, biz ordu-ictimaiyyət əlaqələrini daha da sıxlaşdıraq, genişləndirək. Bunun böyük əhəmiyyəti var. Orduya ictimai nəzarət həyata keçirilir, ictimaiyyət nümayəndələri, valideynlər orduda gedən prosesləri yaxından izləyirlər. Həm də səngərdəki əsgərlərimiz görürlər ki, ictimaiyyətin onlara böyük diqqəti var. Əsgərlərimiz dövlətin diqqətini həmişə hiss edir. Ali Baş Komandan hər dəfə bölgələrə gedəndə əsgərlərlə görüşür. Əsgərlərimiz başda Ali Baş Komandan olmaqla, Müdafiə Nazirliyinin rəhbərliyinin diqqətini hiss edir. Maddi texniki baza güclənir, ərzaq təminatından tutmuş geyimə qədər beynəlxalq standartlara uyğun təmin edilib. Azərbaycan əsgərinin cəmiyyətin diqqətinə, Azərbaycan cəmiyyətinin də əsgərlərlə təmasda olmasına ehtiyac var. Bu baxımdan, ictimaiyyət nümayəndələrinin cəbhə bölgələrinə səfərləri xüsusi əhəmiyyət daşıyır. Cəmiyyətin ölkənin təhlükəsizliyini, müdafiə qabiliyyətini təmin edən əsgərlərin həm şəraitini görməyə, həm də dəstək verməyə ehtiyacı var. Bu ehtiyac ikitərəfli ödənir və bu, nəticədə böyük mənəvi enerjiyə, gücə çevrilir".

Belə səfərlərin davamlı xarakter aldığını vurğulayan Emin Həsənli Azərbaycan Silahlı Qüvvələrin Günü qabağı bir qrup ehtiyatda olan zabit və generallarla Qusarda hərbi hissədə olduqlarını söyləyib: "Yəni tək cəbhə bölgəsində deyil, Azərbaycanın bütün hərbi hissələrinə il boyu belə səfərlər, əsgərlərlə görüş təşkil edilir, konsertlər keçirilir. Ümumiyyətlə, Silahlı Qüvvələrə ictimai nəzarət prosesi xeyli vaxtdır ki, həyata keçirilir və artıq bu, sistemli, ardıcıl xarakter alıb. Silahlı Qüvvələrin rəhbərliyi şərait yaradıb ki, biz tez-tez belə tədbirlər təşkil edək, Silahlı Qüvvələrə ictimai nəzarət prosesini həyata keçirək".

## "Birlikdə biz QİÇS-ə qalib gələcəyik" hesabatı ictimaiyyətə təqdim olunacaq

BMT-nin İİV və QİÇS üzrə birgə proqramının (UNAIDS) "Birlikdə biz QİÇS-ə qalib gələcəyik" adlı yeni, 2012-ci il hesabatı, 22-27 iyul tarixlərində Vaşinqtonda baş tutacaq QİÇS üzrə XIX Beynəlxalq Konfrans öncəsi — 18 iyul tarixində təqdim ediləcək. Bu barədə BMT-nin Azərbaycan nümayəndəliyindən qəzetimizə məlumat verilib.

Hesabat yeni İİV infeksiyaları haqqında son statistika, antiretroviral müalicə alan insanların sayı, uşaqlar arasında QİÇS və İİV ilə bağlı ölüm halları üzrə ən son məlumatları özündə cəmləşdirir. O, həmçinin, yeni elmi imkanlar və sosial tərəqqini vurğulayaraq beynəlxalq və daxili İİV investisiyaları haqqında ümumi məlumat verir. Hesabat 18 iyul tarixində Vaşinqtonda yüksək səviyyəli interaktiv panelin müzakirəsi əsnasında təqdim ediləcək.

Hesabat və mətbuat dəstlərinə əlavə olaraq, UNAIDS həm də yayım üçün Asiya, Şərqi Avropa, Latın Amerikası və sub-Sahara Afrikasından görüntülərin daxil olduğu videolardan ibarət xəbər buraxılışı da nümayiş etdirəcək.

**S.MÜRVƏTQIZI**

# Zərdabi və "Əkinçi" qəzeti ilə bağlı yeni kitab

TÜRKİYƏDƏ KEÇİRİLƏN TƏDBİRDƏ 100 NƏFƏRDƏN ÇOX JURNALİST İŞTİRAK EDİB

İyulun 15-də Mersində Mərmərə Universitetinin professoru Okan Yeşilotun "Həsən Məlikzadə Zərdabi və Əkinçi qəzetəsi" kitabının təqdimatı olub. Təqdimat Türkiyə Qəzetçilər Federasiyası başkanlarının 39-cu toplantısında baş tutub.

Toplantida Türkiyə Qəzetçilər Federasiyasının sədri Atilla Sertel, bu ölkənin 70-dən artıq jurnalist təşkilatının rəhbərləri, şəhər bələdiyyəsinin sədri və Azərbaycandan Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı iştirak edib.

Təqdimat Türkiyə Qəzetçilər Federasiyası və Azərbaycan Parlament Jurnalistlər Birliyinin təşkilatçılığı ilə baş tutub.

Öncə kitab barədə PJB sədri Elşad Eyvazlı məlumat verib. O qeyd edib ki, bu kitabın ərsəyə gəlməsində millət vəkli Məlahət İbrahimqızı və Mərmərə Universitetinin professoru Okan Yeşilotun xüsusi xidmətləri olub: "Biz də PJB olaraq bu kitabın işıq üzü görməsində üzərimizə düşən vəzifəni yerinə yetirməyə çalışdıq".




Türkiyədə jurnalistlər bu kitabı böyük maraqla qarşılayıblar. Məlum olub ki, indiyədək Türkiyədə bu barədə heç bir məlumatı olmayıb.

TGF sədri Atilla Sertel qeyd edib ki, belə aydınların tanıdılmasına böyük ehtiyac var: "Həsən bəy Zərdabi zamanında mümkün olmayanları edib. Çox böyük işlər görüb. Bizim borcumuzdur ki, belə şəxsiyyətləri öyrənək. Həsən bəy gerçəkdən örnək bir şəxsiyyət olub. Biz bundan sonra da bu şəklidə tədbirlərin keçirilməsinə çalışmalıyıq. Eyni zamanda Türkiyə mətbuatının tarixi ilə bağlı azərbaycanlı məsləkdaşlarımıza belə bir kitabın təqdim edilməsinə nail olmalıyıq".

PJB sədri qeyd edib ki, Mərmərə Universitetinin professoru Okan Yeşilot bu kitabı yazmaqla Zərdabinin bütün türk dünyasının aydın olduğunu sübut etmiş oldu: " "Əkinci" qəzetinin Türkiyə oxucularına çatdırılması Okan bəyin xidmətidir. Kitabın Türkiyədə çap edilməsinin xüsusi əhəmiyyəti var. Bu ilk növbədə bütün Türk dünyasının Həsən bəyə olan ehtiramıdır. "Əkinçi"yə göstərilən bu diqqət Zərdabinin yalnız Azərbaycan deyil, bütün türk dünyasının aydını olduğunu birdaha təsdiqləyir".

Tədbirin sonunda PJB sədri Elşad Eyvazlı kitabı TGF sədrinə, bələdiyyə başkanı və digər şəxslərə təqdim edib.

Təqdimatdan sonra jurnalistlər üçün bayram gecəsi keçirilib.

### “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “Göyərçin” jurnalı – Azərbaycan milli uşaq mətbuatının parlaq səhifəsi




*Zöhrə FƏRƏCOVA*



Baş redaktor Rafiq Yusifoğlu deyir ki, “Göyərçin” jurnalı rəssamlıq sahəsi ilə də sıx bağlı olub: “Jurnalın ilk rəssamı sonralar Azərbaycan Rəssamlar İttifaqının sədri olan Yusif Hüseynov idi. Ondan sonra bu jurnalın bədii rəhbəri müxtəlif vaxtlarda Rafiq Mehdiyev, Rəşid Əmirov və başqa Xalq rəssamları oldular. Uzun illərdir ki, Xalq rəssamı Arif Hüseynov “Göyərçin”in bədii rəhbəridir. Jurnalın səhifələrində verilən rəsmlər internetdən götürülmür, hamısı rəssam işidir. Belə demək olar ki, jurnalda rəssamlar ordusu yetişib. Arif Hüseynovun bir vaxtlar, necə deyərlər, əllərindən tutub bu jurnala gətirdikləri Vəfa İbrahim qızının, Mətanət Aslanovanın indi özlərinin yetirmələri var. “Göyərçin”də Fidan Axundova, Aytən Şirzadova kimi gənc istedadlı rəssamların rəsmləri də dərc olunur”.

Jurnalın ilk məsul katibi yazıçı Hüseyn Abbaszadə oldu. Yusif Hüseynovdan sonra “Göyərçin”ə o, baş redaktorluq etdi. Hüseyn Abbaszadə Azərbaycan Yazıçılar İttifaqının katibi seçiləndən sonra bu jurnala rəhbərlik yazıçı Xalidə Hasilovaya tapşırıldı. O, “Azərbaycan qadını” jurnalına baş redaktor təyin olunduqdan sonra isə Hüseyn Abbaszadə geri döndü. Jurnalın dördüncü baş redaktoru da o, oldu. Hüseyn Abbaszadədən sonra “Göyərçin”ə baş redaktor seçilən Tofiq Mahmud uzun illər bu vəzifədə qaldı. 1997-ci ildən bu günədək jurnalın baş redaktoru Rafiq Yusifoğludur. Onu “Göyərçin” junalında işləməyə 1985-ci ildə Tofiq Mahmud dəvət edib. Ancaq Rafiq Yusifoğlu bu jurnalla əməkdaşlığa 1969-cu ildən başlayıb. “Göyərçin” jurnalına gələnədək Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirib Sumqayıtda müəllimlik fəaliyyəti ilə məşğul olub. Aspiranturada oxuyub. 1984-cü ildə filologiya elmləri namizədi adını alıb. Hazırda filologiya elmləri doktoru, professordur. 58-ə qədər kitabın müəllifidir. Rafiq Yusifoğlu deyir: “Mənə o zaman bu jurnala elə-belə dəvət etmədilər. O vaxtadək imzam yetərincə tanınırdı. Həm “Göyərçin”, həm də başqa mətbuat orqanlarında əsərlərim dərc olunurdu. Kitablarım çapdan çıxmışdı. Əsərlərim ibtidai sinif dərsliklərinə salınmışdı. Üç ümumittifaq seminarında Azərbaycanı təmsil etmişdim. O zaman Pedaqoji İnstituta da dəvət olundum. Amma bu jurnalda işləməyi seçdim. 1985-1992-ci illərdə “Göyərçin”in redaksiyasında şöbə müdiri işlədim. 1992-ci ildə Hikmət Ziya ərizə verdi, yerlərimizi dəyişdik, o şöbə müdiri oldu, mən məsul katib. 1996-cı ildə tələbə yoldaşım Nizami Xudiyev Azərbaycan Teleradio Verilişləri Şirkətinə sədr təyin olunanda məni ora apardı. Elm, mədəniyyət, incəsənət şöbəsinə rəhbərlik etdim. Bir il sonra “Göyərçin” jurnalına qayıtdım. Eyni zamanda, pedaqoji fəaliyyətlə məşğulam. Sumqayıt Universitetində və Pedaqoji Universitetində dərs deyirəm”.

(Əvvəli 14 iyul sayımızda)










Rafiq Yusifoğlu “Göyərçin”in həm böyük tirajla yayıldığı, hər sayının böyük səbirsizliklə gözləndiyi, həm də ən çətin günlərinin şahidi kimi danışır: “Bu jurnal 1970-1980-ci illərdə 270 min tirajla çap olunurdu. “Göyərçin”in hər sayını səbirsizliklə gözləyir, sevinclə qarşılayırdılar. Redaksiyada xüsusi məktublar şöbəsi yaradılmışdı. Gələn məktubların sayı o qədər çox olurdu ki, bir şöbə onları oxuyub çatdıra bilmirdi”. İndi də “Göyərçin” jurnalı var. Ancaq daha nə elə böyük tirajla çap olunur, nə də ünvanına o qədər oxucu məktubları gəlir...

Sovet hakimiyyəti süquta uğrayanda adət edilmiş üsullar dəyişdi. Mətbuat da özünə yeni düzən qurmaq üçün yollar aramağa başladı. Sovetlər dövründə komsomol və kommunist partiyası təşkilatlarının orqanı olan qəzet və jurnalların əksəriyyətinin bağlanmasına rəsmi göstəriş verilmədi. Amma maddi cəhətdən həmişə asılı vəziyyətdə olmuş mətbu orqanların bəzisi davam gətirə bilmədi. Qalanlar isə yeni düzənə alışmaq, yaşamaq üçün illərlə mübarizə apardılar. Həmin illərdə “Göyərçin”in redaksiyasına gələn məktublar da kəsildi. Jurnalın əvvəlki tirajı xəyala çevrildi. Rafiq Yusifoğlu deyir: “Mən redaktor olandan, yəni 1997-ci ildən sonra “Göyərçin” jurnalını 4 min, 5 min, hətta 10 min tirajla çap etdiyimiz vaxtlar oldu. Amma gördük xərci borcunu ödəmir, həmin tirajı da çox çətinliklə yayırıq. Ona görə real tirajla jurnalın nəşrini davam etdirməli olduq”. “Göyərçin”in bu günki real tirajı isə 1500-dür. Rafiq Yusifoğlu deyir: “Mətbuat yayımı idarələri ilə bərabər, biz də məktəblərdə jurnalımızı yayırıq. Amma kütləvi yayımdan söhbət getmir. Kimi görürsən, deyir, “Göyərçin” gözəl jurnaldır, necə əldə edək? Amma həqiqət budur ki, jurnalın sayları geri qayıdır”.

Rafiq Yusifoğlunun fikrincə, qəzet və jurnalların satışına nail olmaq üçün ilk növbədə onlar yaxşı təbliğ olunmalıdır: “Sovetlər dövründə bu məsələyə xüsusi diqqət göstərilirdi. “Göyərçin” ünvanı bəlli mətbuat orqanıdır. O vaxtlar respublikada yalnız bir televiziya fəaliyyət göstərirdi. O da hər ay “Göyərçinin hədiyyəsi” adlı veriliş yayımlayırdı. “Göyərçin” jurnalı çapdan çıxmamış onun materialları barədə oxuculara məlumat çatdırılırdı. Mətnləri biz buradan göndərirdik, televiziyada səhnələşdirirdilər. Gözəl veriliş alınırdı. “Göyərçinin hədiyyəsi” verilişinin aparıcısı da uşaqlar idi. İndi televeziyalarımızda uşaq verilişləri də yox dərəcəsindədir. Olanlar da efir doldurmaq, ya da əyləncə xatirinə hazırlanır”.

(Ardı var)



### Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

## *Danilo Assioli:* "İnter" "Asteras" səddini keçəcək"

“Yeni klubuma tam uyğunlaşdığımı deyə bilərəm. Prinsipcə, bu, elə də çətin olmadı. Portuqaliya futbolu ilə Azərbaycan futbolunun müqayisəsinə gəlincə, siz də bilirsiniz ki, bu mümkün deyil. Burada çempionatın səviyyəsi daha yülsəkdi. Baxmayaraq ki, mənim çıxış etdiyim “Santa Klara” II divizionda çıxış edir, amma burada da səviyyə yuxarıdır”.



Bu sözləri Qol.Az-a açıqlamasında Bakının “İnter” klubunun sabiq futbolçusu, hazırda Portuqaliyanın II divizion klubu “Santa Klara”nın şərəfini qoruyan Danilo Assioli deyib.

O, sabiq klubunun Avropa Liqasının II təsnifat mərhələsi çərçivəsində Yunanıstanın “Asteras” klubuna qarşı keçirəcəyi oyun haqda da danışıb: “Yunanıstan futbolunun da səviyyəsi yüksəkdir. Ancaq “Olimpiakos”, “Panatinaikos” və PAOK-u çıxmaq şərtiylə, digər klublarının büdcəsi, imkanları elə də yüksək səviyyədə deyil. Düzü, “Asteras” haqqında mənim də məlumatım yoxdur. Səhv etmirəmsə, bu il avrokuboklarda debüt edəcəklər. “İnter”in gücünə isə bələdəm, yaxşı futbolçuları var və bu mənada əminliklə deyirəm ki, “İnter” “Asteras” səddini keçəcək”.

Qeyd edək ki, Assioli bu yay “İnter”dən ayrılmışdı.

## *“Asteras Tripolis”in baş məşqçisi:* "İnter"lə hər iki oyun ağır keçəcək"



Avropa Liqasının II təsnifat mərhələsində “İnter”in rəqibi olan “Asteras Tripolis” klubunun baş məşqçisi Sakis Tsiolis komandasının hazırlıq planından danışıb.

Yunanıstan mətbuatına danışan 53 yaşlı mütəxəssis “İnter”lə oyuna yaxşı hazırlaşdıqlarını, ancaq hər iki oyunun çox ağır keçəcəyini bildirib:

“Yolumuz uzaq olduğundan bizi çətin səfər gözləyir. Bununla belə, “İnter”lə oyuna yaxşı hazırlaşmışıq. Təbii ki, müəyyən çatışmazlıqlarımız da var.

Lakin mən komandama güvənirəm və inanıram ki, onlar rəqibinə layiqli müqavimət göstərəcəklər. Rəqibimizə gəldikdə isə “İnter” yaxşı komandadır və düşünürəm ki, onlara qarşı hər iki oyun ağır keçəcək”.

Qeyd edək ki, “Dalğa Arena”da keçiriləcək “İnter” — “Asteras Tripolis” matçı iyulun 19-da saat 21:00-da başlayacaq.

## *Peter Çex:* "Bu mövsüm özümüzü sübut etməliyik"

“Çelsi” klubunun qapıçısı Peter Çex komandanın yeni transferləri və gələcək mövsüm haqda danışıb.



Klubun rəsmi saytına danışan Çex yeni mövsümdə özlərini sübut etməli olduqlarını bildirib:

“Yeni mövsümün də ötən ilki kimi gərgin keçəcəyini düşünürəm. Komandam oturuşmuş heyətə malik idi. Ancaq yeni futbolçuların gəlişi ilə bir qədər də güclənmişik. Çempionlar Liqasını qazandıqdan sonra bəzi futbolçularla yollarımız ayrılsa da, artıq onları yerləri doldurulub. Artıq yeni mövsümün başlamasını səbirsizliklə gözləyirəm. ÇL-in qalibi olaraq bu mövsüm də özümüzü sübut etməliyik”.

Qeyd edək ki, 2004-cü ildən “Çelsi”nin şərəfini qoruyan Çex 256 oyunda forma geyinib.

## *“Lex”in kapitanı:* "Xəzər Lənkəran" standart vəziyyətləri yaxşı yerinə yetirir"

“Azərbaycana daha öncə də səfər etmişəm. Həm “Lex”in, həm də Polşa millisinin heyətində. Öncədən deyim ki, bizi uzun yol gözləyir. Bakıya çatdıqdan sonra avtobusla daha 5-6 saat yol getməli olacağıq. Deməli, yol yorğunluğu qaçılmazdır. Ancaq komandamız bu oyuna yaxşı hazırlaşıb və inanıram ki, bütün bu çətinliklərə baxmayaraq, səfərdən yaxşı nəticə ilə dönə biləcəyik”. Bu sözləri Polşa mətbuatına açıqlamasında iyulun 19-da Avropa Liqasının II təsnifat mərhələsində “Xəzər Lənkəran”ın qonağı olacaq Polşanın “Lex”klubunun kapitanı Rafal Muravski deyib.

O, Lənkəran təmsilçisinin oyununu da şərh edib: “Bu komandanın iştirak etdiyi bəzi oyunların kasetini izləmişik. Buna əsaslanıb deyərdim ki, “Xəzər Lənkəran” standart vəziyyətləri yaxşı yerinə yetirir. Elə ilk mərhələdə vurduqları 4 qoldan üçünü də məhz bu cür epizoddan vurublar. Deməli, hava toplarında bacardıqca diqqətli olmalıyıq”.

Qeyd edək ki, “Xəzər Lənkəran” — “Lex” matçı iyulun 19-da saat 20:00-da Lənkəran şəhər stadionunda oynanılacaq.


**TƏBRİK**

**Təvəllüdün mübarək,
Sən, ey mübarək qadın
Sənə qıymasın fələk
Anadır sənin adın.**

**Sənin övladlarınıq
Qəm görməyəsən, ana
Nəyə desən hazırıq
Daim borcluyuq sana.**

**Südünü halal eylə
Laylan da öz yerində.
Nə istərsən? Bir söylə
Hazırıq ad günündə.**

**Məmmədova Güneli ad günü münasibətilə oğlu Oruc və bacısı qızı Nuridə təbrik edirlər.**


## "Procter & Gamble" Azərbaycanda təmsilçiliyini genişləndirir

Dünyanın ən böyük SYİM (Sürətlə Yayılan İstehlak Malları) şirkəti olan “Procter & Gamble” marketinq fəaliyyətinə, habelə məhsullarının idxalı və satışlarını həyata keçirən yerli distribüter şirkəti ilə təcrübəsini bölüşməyə xüsusi diqqət yetirərək 13 ildən artıqdır ki, öz nümayəndəliyi vasitəsilə Azərbaycanda fəaliyyət göstərir.

“Procter & Gamble” şirkəti brendləri və korporativ sosial proqramları sayəsində illər ərzində milyonlarca Azərbaycan istehlakçılarının həyatının tərkib hissəsi olub. Hər gün 170 000-dən artıq istehlakçı “Procter & Gamble” məhsullarını alır və onlardan istifadə edir.

“Procter & Gamble” şirkəti münasib işgüzar mühitin sayəsində Azərbaycanda biznesin inkişafında yüksək müvəffəqiyyətlərə nail olduğunu nəzərə alaraq ölkəmizdə və yerli bazarda öz təmsilçiliyini genişləndirmək qərarına gəlib. “Procter & Gamble” şirkəti marketinq təşəbbüsləri, məhsulların idxalı və partnyorlarla əlaqələrin qurulması daxil olmaqla Azərbaycanda bütün biznes əməliyyatlarına cavabdeh olacaq yeni hüquqi şəxs təsis edib. İnanırıq ki, “Procter & Gamble” şirkətinin ölkədə daha güclü təmsil olunması Azərbaycan istehlakçılarının tələbatlarını brendlər və sosial proqramlarımızın köməyi ilə daha tam şəkildə ödəməyə imkan yaradacaq. Bununla bağlı, “Procter & Gamble Azərbaycan Servisləri” MMC şirkətinin baş direktoru cənab Kaan Baral qeyd edib ki, bu, şirkətimiz tərəfindən Azərbaycan istehlakçılarına xidmət göstərmək öhdəliyi və Azərbaycan iqtisadiyyatına uzunmüddətli sərmayə yatırmaq niyyətimizi əks etdirir.

“ENGIN LTD” distribüter şirkəti “Procter & Gamble” şirkətinin məhsullarının ölkə ərazisində distribüsiyasında əsas tərəfdaş olaraq qalacaq.

“Procter & Gamble” şirkəti haqqında

“Procter & Gamble” şirkəti öz etibarlı və keyfiyyətli brendlər çeşidi vasitəsilə dünya üzrə 4,4 milyard insanın həyatına təsir göstərərək məişətini yüngülləşdirir. Şirkətin aparıcı brendləri aşağıdakılardır: Pampers®, Tide®, Ariel®, Always®, Whisper®, Pantene®, Mach3®, Bounty®, Dawn®, Fairy®, Gain®, Charmin®, Downy®, Lenor®, Iams®, Crest®, Oral-B®, Duracell®, Olay®, Head & Shoulders®, Wella®, Gillette®, Braun®, Fusion®, Ace®, Febreze®, və Ambi Pur®. Şirkət 80-dən çox ölkədə nümayəndəlikləri ilə təmsil olunaraq dünyanın 180 ölkəsində brendlərini istehlakçılara təklif edir.

“Procter & Gamble” şirkətinin nümayəndəliyi Azərbaycanda 1998-ci ildən fəaliyyət göstərir. Şirkət Azərbaycanda istehlakçılara 30-dan çox brend altında məhsullar təklif edir. “Procter & Gamble” şirkəti 1,000,000-dan artıq gənc ana və uşaqların məişətini yüngülləşdirən çoxsaylı korporativ sosial məsuliyyət layihələrini ölkə ərazisində həyata keçirib.

“Procter & Gamble” şirkəti və onun brendləri haqqında daha ətraflı məlumat almaq üçün sayta müraciət edin http://www.pg.com.


Təcili ev satılır!

Sahil bağının yanı, Xaqani küç. 20-də yerləşən 4 mərtəbəli binanın 4-cü mərtəbəsində 3 otaqlı təmirli mənzil satılır. Evin hər cür şəraiti var. Sənədləri qaydasındadır. Özüm satıram. Qiyməti 130 min manatdır. Qiymətində endirim mümkündür.

**Əlaqə telefonu: 0705655823, Vaqif**

Bağırova Familə Əkbər qızına 06.07.2009-cu ildə verilmiş VÖEN (№1302003702) itdiyi üçün etibarsız sayılır.

Zakir Fəxri və Adil Minbaşı İsgəndər Həmidova **qardaşı Zakirin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.


2006-cı ildən “AGBank”-ın SBFİC ilə birgə xırda və orta sahibkarlığın inkişafı məqsədiylə başlamış mikromaliyyələşmə layihəsi bu gün də çox uğurla davam edir. Məhz bu illər ərzində əldə olunmuş kəmiyyət və keyfiyyət nailiyyətlərin nəticəsidir ki, 10 İyul 2012 il tarixində “Kempinski Otel Badamdar”-da Bakı və Sumqayıt şəhərlərində fəaliyyət göstərən 5 filialın və Gəncədə 1 filialın mikromaliyyələşmə layihəsinin əməkdaşları SBFİC Bakı nümayəndəliyi və AGBankın idarə heyəti tərəfindən müxtəlif sertifikatlarla təltif olunmuşdur.

Bu sertifikatlar illər ərzində SBFİC tərəfindən təşkil olunmuş müxtəlif seminar və kurSslarda iştirak edib kursu uğurla bitirən və nəzəri bilikləri praktiki iş və təcrübəylə birləşdirə bilən 36 nəfər müxtəlif dərəcəli layihə əməkdaşlarına verilmişdir.

Ümumilikdə baza seminarları uğurla keçən 26 nəfərə baza sertifikatları, 6 nəfərə aqro mütəxəssis sertifikatları, 10 nəfərə menecer və 6 nəfərə lektor sertifikatları verilmişdir ki, bu həmin sahələr üzrə peşəkar mütəxəssislərin hazırlıq səviyyəsindən və peşəkarlığından xəbər verməkdədir.


**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2446
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.